

*Bizə tarix versinlər, Zəngəzur dəhlizi nə vaxt açılacaq və belə olan halda, heç bir problem olmayacaq. Hesab edirəm ki, həm Ermənistan rəhbərliyi, həm Ermənistan ictimaiyyəti, əhalisi bunu başa düşməlidir. Biz istədiyimizə nail olmuşuq, oluruq və olacağıq. Yaxşı olar ki, bu məsələ konstruktiv şəkildə danışıqlar yolu ilə, qarşılıqlı anlaşma yolu ilə həll olunsun. Çünki İkinci Qarabağ müharibəsi bütün dünyaya xalqımızın iradəsini, gücünü və birliyini göstərdi.*

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

**Quba, Qonaqkənd, 6 dekabr 2021-ci il**

# AZƏRBAYCAN istədiyinə nail olub, olur və olacaq...

***Dövlət başçımızın Quba rayonuna səfəri zamanı Qonaqkənddə səsləndirdiyi bu fukirləri eşidəndə, təxminən, son iki ilin bütün prosesləri gözümüz qarşısından keçdi. Danılmaz faktdır ki, münaqişənin həlli üçün aparılan danışıqları on illər boyu pozmuş Ermənistan rəhbərliyi Prezident İlham Əliyevin çağırışlarına müsbət cavab versəydi, həm beynəlxalq aləmdə kapitulyasiya aktına imza atmış ölkə kimi rüsvay olmazdı, həm bu qədər hərbi texnika və canlı qüvvə itkisi ilə üzləşməz, həm də ölkə daxilində indiki acınacaqlı vəziyyət yaranmazdı.***

Hamının yadındadır. 2020-ci ilin fevralında Nikol Paşinyan və İlham Əliyev arasında görüş Münxen Təhlükəsizlik Konfransında olmuşdur. Həmin görüş ona görə əlamətdar idi ki, münaqişə tarixində ilk dəfə iki ölkə lideri ictimaiyyət qarşısında açıq debata çıxmışdı. Azərbaycan Prezidenti həmin tədbirdə də Ermənistanın yalanlarını ifşa etməklə yanaşı, ənənəvi sülh çağırışlarına sədaqət nümayiş etdirmişdi: "Bizim torpaqlarımızdan nə zaman çıxacağınızı deyin, biz də öz planlarımızı həmin tarixə əsasən quraq".

**(ardı 5-ci səhifədə)**

# Azərbaycan istədiyinə nail olub, olur və olacaq...

**(əvvəli 1-ci səhifədə)**

Ermənistan rəhbərliyi son otuz ildə olduğu kimi, Münxen konfransında səsləndirilən çağırışlara da məhəl qoymadı. Əksinə, ötən ilin yazında Dağlıq Qarabağda yerli ermənilər prezident seçkisi keçirdilər və qondarma dövlətin saxta prezidentinin andiçmə mərasimi Şuşa şəhərində qeyd edildi. Ermənistanın baş naziri Nikol Paşinyan oradakı şənliklərə qatıldı. Bu, Azərbaycan xalqının əsəbləri ilə oynamaq idi. Bizim əsəblərimizlə oynadıqları az imiş kimi, baş nazir Şuşada hətta, "yallı" da oynadı.

Bu hoqqalara qədər isə – 2019-cu ilin avqustunda Dağlıq Qarabağda təşkil olunan Ümumerməni Oyunlarının açılışında Ermənistanın baş naziri Nikol Paşinyan "Qarabağ Ermənistandır və nöqtə" şüarı səsləndirmişdi. Ondan bir qədər sonra isə işğalçı ölkənin müdafiə naziri Davit Tonoyan ABŞ-da səfərdə olarkən Ermənistanın Qarabağla bağlı yeni strategiyasının "Yeni müharibə - yeni ərazilər" olduğunu demişdi.

… Həmin ilin payızında isə əvvəlcə Azərbaycan əsgərinin qarşısında duruş gətirə bilməyərək, kütləvi şəkildə qaçmağa başladılar. Bu qaçışların da bir çıxış, yolu olmadığını "dərk edəndə" isə ağ bayraq qaldırmaqdan, kapitulyasiya aktını imzalamaqdan başqa çarələri qalmadı. Məğlub edildilər, rüsvay oldular, zəlil günə qaldılar, iqtisadiyyatları iflic vəziyyətinə düşdü, siyasətləri dalana dirəndi, himayədarları onlardan üz döndərdi, ölkədaxili vəziyyət bir ildir ki gərginləşməkdə davam edir. Çünki sülhsevər ölkənin humanist Prezidentinin çağırışlarını qulaqardına vurdular. Nəticədə çəkməli olduqları cəza ilə üzləşiblər.

Ancaq yenə də tarixin dərslərindən ibrət götürmək istəmirlər. Ona görə də Prezident İlham Əliyev Qubaya səfəri zamanı – Qonaqkənddə ictimaiyyət nümayəndələri ilə görüşərkən bir daha xatırlatdı ki, Ermənistan rəhbərliyi öz xalqına və dövlətinə sərf edən variantı seçməli, sülh razılaşmasına imza atmalıdır: "Bizim son vaxtlar apardığımız işlər onu göstərir ki, hər hansı bir revanşist meyil olarsa, onun məsələsi dərhal yerindəcə həll olunacaq. Çünki müharibədən sonra Ermənistan tərəfindən bir neçə dəfə belə cəhdlər oldu və onun acı nəticələrini onlar özləri gördülər. Ona görə hələ ki, gec deyil, mən onlara artıq dəfələrlə müraciət edərək demişdim, bizim şərtlərimizi qəbul etməlidirlər, yollarla, kommunikasiyalarla bağlı hər hansı bir qeyri-səmimi yanaşmaya son qoyulmalıdır. Əgər belə olarsa, onda Cənubi Qafqazda bütün xalqlar sülh, əmin-amanlıq şəraitində yaşayacaq. Çünki biz istədiyimizə nail ola bilmişik, bunu hər kəs gördü".

Bəli, ötən ilin payızında Ermənistan da gördü, dünya da gördü ki, Azərbaycan Ordusunun əməliyyatlarını heç kim saxlaya bilmədi. Dövlət başçımızın dəfələrlə dediyi kimi, həmin 44 gündə bizi saxlamaq istəyənlər olub, kifayət qədər güclü dairələr olub, amma bizi dayandıra bilmədilər: "Mən demişdim ki, bizə tarix versinlər torpaqlarımızdan nə vaxt çıxır, o an biz dayanmağa hazırıq. Bu gün də eyni sözü deyirəm. Amma deyirəm ki, bizə tarix versinlər, Zəngəzur dəhlizi nə vaxt açılacaq və belə olan halda, heç bir problem olmayacaq. Ona görə hesab edirəm ki, həm Ermənistan rəhbərliyi, həm Ermənistan ictimaiyyəti, əhalisi bunu başa düşməlidir".

Ermənistan əgər bizim siyasət, diplomatiya, insanlıq naminə səsləndirdiyimiz çağırışlara cavab verə bilmirsə, onda konkret tarixi faktı nəzərə alsın. Fakt ondan ibarətdir ki, bizim dövlətimiz və ordumuz Azərbaycan xalqına 30 il arzuladığı günləri bəxş etmişdir. Azərbaycan dövləti erməni xalqına başa salmışdır ki, öz siyasətçiləri onları otuz ildir aldadır. Azərbaycan isə istədiyinə nail olub, olur və olacaq.

Dövlət başçımız Qonaqkənddə Ermənistan rəhbərliyinə və onların havadarlarına bir daha çağırış etdi: "Yaxşı olar ki, bu məsələ konstruktiv şəkildə, danışıqlar yolu ilə, qarşılıqlı anlaşma yolu ilə həll olunsun. Çünki İkinci Qarabağ müharibəsi bütün dünyaya xalqımızın iradəsini, gücünü və birliyini göstərdi".

Bu zaman – yəni Ermənistanın haqq yoluna qayıtmaqda tərəddüd etdiyini dilə gətirərkən, Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin noyabrın 26-da Azərbaycan və Ermənistanın dövlət başçıları ilə görüşdə səsləndirdiyi xəbərdarlığı da yada salmaq zərurəti var: "Bütövlükdə il ərzində az iş görülməyib. Birincisi, heç bir irimiqyaslı döyüş əməliyyatları baş vermir, bu da özlüyündə çox yaxşı haldır... Yaxşı monitorinq qrupu yaradılıb, bizim kontingent fəaliyyət göstərir, hər iki tərəfin dəyərləndirməsindən belə başa düşürəm ki, layiqincə işləyir, insanların həyatı üçün təhlükəsiz şərait təmin edir. Atəşkəsə nəzarət üzrə Rusiya –Türkiyə mərkəzi fəaliyyət göstərir. Ən əsası odur ki, gələcəkdə normal dinc həyat üçün şərait yaradılır".

Nikbin münasibətdir. Ancaq çox təəssüf ki, Ermənistan rəhbərliyi hələ də "normal dinc həyat üçün şərait yaradılmasını" əngəlləməyə çalışır. Fikrimizcə, onların günün reallıqlarını, xüsusən, Azərbaycan Ordusunun yaratdığı reallıqları qəbul etməkdən başqa yolları qalmayıb. Başqa yolla getsələr, yenə də başları yumruq altına düşəcək. Çünki "dəmir yumruq" öz yerindədir.

***İttifaq MİRZƏBƏYLİ, "Xalq qəzeti"***

Xalq qəzeti .- 2021.- 8 dekabr.- S.1;5.